**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 71

**Bakı şəhəri** „15" iyul 2014-cü il

**"Şəkərli diabet xəstəliyindən əziyyət çəkən xəstələrə angioloji xidmətinin təkmilləşdirilməsi barədə"**

Şəkərli diabet xəstəliyindən əziyyət çəkən xəstələrə konsultativ və stasionar angioloji xidmətinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin 14.3-cü bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Angioloji və Mikrocərrahiyyə Mərkəzinin adı dəyişdirilərək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Xüsusiləşdirilmiş Angioloji Mərkəzi adlandırılsın.
2. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Xüsusiləşdirilmiş Angioloji Mərkəzi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
3. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, Xüsusiləşdirilmiş Angioloji Mərkəzinin ştat cədvəli hazırlanaraq müəyyən edilmiş qaydada təsdiq edilsin.
4. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrdən irəli gələn digər məsələlər həll edilsin.
5. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

Oqtay Şirəliyev

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 15 07.2014-cü il tarixli
71 nömrəli əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
Xüsusiləşdirilmiş Angioloji Mərkəzi haqqında**

# ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Xüsusiləşdirilmiş Angioloji Mərkəzi (bundan sonra - Mərkəz) şəkərli diabet xəstəliyindən əziyyət çəkən böyüklərə və uşaqlara konsultativ və stasionar angioloji yardımı göstərən xüsusiləşdirilmiş müalicə-profilaktika müəssisəsidir.

2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Səhiyyə Nazirliyinin əmr və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

3. Mərkəz qanunvericiliyə uyğun istifadəsində olan dövlət əmlakına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir. Mərkəz məhkəmələrdə iddiaçı və cavabdeh qismində çıxış edə bilər.

4. Mərkəzin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

5. Mərkəz Bakı şəhəri, Şərifzadə küç., 196 ünvanında yerləşir.

## II. Mərkəzin fəaliyyət istiqamətləri

6. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

6.1. müasir tibb elminin və tibbi texnikanın nailiyyətləri əsasında şəkərli diabet xəstələrinə ixtisaslaşdırılmış konsultativ və stasionar angioloji tibbi yardım göstərir;

6.2. angioloji profili üzrə şəkərli diabet xəstələrinin müalicəsi prinsiplərinin beynəlxalq standartlar səviyyəsinə çatdırılması üzrə müvafiq tədbirləri həyata keçirir;

6.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Mərkəzin vəzifələri

7. Mərkəz aşağıdakı vəzifələri yerinə yetirir:

7.1. səhiyyə idarə və müəssisələrin göndərişi əsasında, o cümlədən təcili və təxirəsalınmaz tibbi yardım xidməti tərəfindən daxil olmuş şəkərli diabet xəstələrə angioloji profili üzrə ixtisaslaşdırılmış konsultativ və stasionar yardımını göstərmək;

7.2. elmi təbabətin və texnikanın nailiyyətləri, eləcə də müalicə-profilaktika işinin qabaqcıl təcrübəsi əsasında angioloji profili üzrə müasir profilaktika, diaqnostika və müalicə üsullarının təcrübədə tətbiq etmək;

7.3. angioloji profili üzrə tibbi yardımın və xəstələrə qulluğun təşkilatı forma və üsullarını inkişaf etdirmək və təkmilləşdirmək;

7.4. xəstələrin müvəqqəti və davamlı əmək qabiliyyətinin itirilməsinin ekspertizasını aparmaq, əmək qabiliyyəti olmamaq vərəqəsini vermək, əmək şəraitinin dəyişdirilməsinə ehtiyac olan halda müvafiq tövsiyələr vermək, əmək qabiliyyətinin davamlı itirilməsi əlamətləri olduğu halda xəstələri müayinə üçün tibbi-sosial ekspert komissiyasına göndərmək;

7.5. sanitar-məişət şəraiti və xəstələrə qulluğun yaxşılaşdırılması üzrə tədbirlər həyata keçirmək;

7.6. ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

7.7. mərkəzdə çalışan işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitini təmin etmək;

7.8. digər müalicə-profilaktika müəssisələrinə angioloji profili üzrə məsləhət vermək;

7.9. tibb işçilərinin ixtisas səviyyələrinin artırılmasında iştirak etmək;

7.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.11. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görmək;

7.12. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.13. dövlət hesabat məlumatlarının toplanmasını, ümumiləşdirilməsini, dəqiqləşdirilməsini və qanunvericiliyə uyğun olaraq Səhiyyə Nazirliyinə çatdırılmasını təşkil etmək;

7.14. Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş tədbirlər görmək;

7.15. mühasibat uçotunun qanunvericiliyə uyğun olaraq aparılmasını təmin etmək;

7.16. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. Mərkəzin hüquqları

8. Mərkəz öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

8.1. əhaliyə göstərilən tibbi xidmətlər barədə təkliflər hazırlamaq;

8.2. əhalinin sağlamlığına yönəldilmiş sosial təşəbbüslərdə iştirak etmək;

8.3. Mərkəzin struktur bölmələrinin işinin səmərəliyini və göstərilən müalicə-profilaktika yardımın keyfiyyətini təhlil etmək;

8.4. şəkərli diabet xəstəliyinin diaqnostikasının və müalicəsinin müasir metodlarını təcrübədə tətbiq etmək;

8.5. həkimlərin ixtisaslaşdırılması və təkmilləşdirilməsi sahəsində öz səlahiyyətləri daxilində müvafiq tədbirlər həyata keçirmək;

8.6. fəaliyyəti sahəsində tibbi konfrans, simpozium və qurultaylarda iştirak etmək;

8.7. fəaliyyəti sahəsinə aid olan qanunvericilik aktlarının layihəsinin hazırlanmasında iştirak etmək;

8.8. fəaliyyət sahəsi üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.9. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

8.10. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, internet saytı yaratmaq və ondan istifadə etmək;

8.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Mərkəzin fəaliyyətinin təşkili

9. Mərkəzin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir.

10. Mərkəzə Səhiyyə Nazirliyi tərəfindən vəzifəyə təyin və azad edilən direktor rəhbərlik edir. Direktor Mərkəzə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

11. Direktor:

11.1. Mərkəzin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

11.2. Mərkəzin struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

11.3. Mərkəzin işçilərini müəyyən olunmuş qaydada vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

11.4. Mərkəzin işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

11.5. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

11.6. Mərkəzin işçilərinin ixtisaslarının artırılması üçün tədbirlər görür;

11.7. Mərkəzin fəaliyyətini Səhiyyə Nazirliyi sisteminə daxil olan qurumlarla əlaqələndirir;

11.8. Mərkəzi təmsil edir.

12. Mərkəzdə direktordan (sədr), mərkəzin struktur bölmələrinin rəhbər işçilərindən, aparıcı mütəxəssislərdən ibarət Tibbi Şura yaradılır.

13. Mərkəzin Tibbi Şurasının üzvlərinin sayı və tərkibi Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilir.

14. Tibbi Şura öz iclaslarında Mərkəzin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

15. Tibbi Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Tibbi Şuranın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, qərar qəbul edilərkən səslər bərabər olarsa, sədrin səsi həlledici hesab edilir.

16. Tibbi Şuranın qərarları protokolla rəsmiləşdirilir və direktor tərəfindən təsdiq edilir.